 შეფასებისა და გამოცდების
ეროვნული ცენტრი



# Tarix üzrə test

## Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Testin hər bir tapşırığının təlimatı ilə diqqətlə tanış olun, hər bir tapşırığın tələbini yaxşı düşünün və sonra işə başlayın.

Testin maksimum xalı - 60

Testin üzərində işləmək üçün sizə 5 saat vaxt verilir

Sizə uğurlar arzulayırıq!

**1-24№-li tapşırıqlar üçün təlimat.** Hər suala ehtimal olunan dörd cavab verilmişdir. Onlardan yalnız biri düzgündür. Sizin seçdiyiniz cavabı işarə etməyin yeganə yolu cavablar vərəqindəki müvafiq xanada X işarəsi qoymaqdır. Heç bir başqa qeyd, üfüqi yaxud şaquli xətlər, dairəyə almaq və s. elektron proqramı tərəfindən qəbul edilmir. Əgər cavablar vərəqində işarə edilmiş cavabı düzəltmək istəyirsinizsə, xananı bütövlüklə rəngləyin və ona X işarəsi qoyun, sonra cavabın yeni variantını işarə edin (yeni xanada X işarəsi qoyun). Düzəltdiyiniz cavabı təkrarən seçmək qeyrü-mümkündür. Hər tapşırığa 1 xal verilir.

## 1. Y.e.ə. X əsrin axırlarında İsrailin vahid çarlığının ikiyə bölünməsinə nə səbəb oldu?

ა. Misirlilərin hücumları

ბ. Çar David tərəfindən tərtib olunmuş vəsiyyət

გ. Babil çarlığı ilə uzunmüddətli müharibə

დ. Çar Solomondan sonra başlanmış daxili parçalanma

**2. İllüstrasiyada təsvir olunan rənglə hansı tarixi prosesin nəticəsi əks etdirilmişdir?**



ა. Finikiyalıların kolonizasiyası

ბ. Əhəmənilər İranının ekspansiyası

გ. Yeni yunan tikintilərinin əsasının qoyulması

დ. Pun müharibələrində romalıların qələbəsi

**3. Afinanın fəlsəfi məktəbinin adı – akademiya nə ilə əlaqədardır?**

ა. Şəhərlə

ბ. Mifoloji qəhrəmanla

გ. Təhsil metodu ilə

დ. Tədris müəssisəsinin təsisçisi ilə

**4. Roma dövlətində monarxiya üsul-idarəsində dəyişiklik haqqında hansı fikir düzgündür?**

ა. Çarların seçdikləri patritsilər, siyasi hakimiyyəti könüllü surətdə plebeylərə güzəştə getdilər

ბ. Romalılar təkhakimiyyətli üsul-idarəsinə dözmədilər və bütün hakimiyyəti senata verdilər

გ. Xalq tribunları senat çağırdılar və o sonra respublika üsul-idarəsi təsis etdi

დ. Bir şəxs tərəfindən ekspansiya nəticəsində yaradılmış iri dövlətin idarə olunması

**5. “Salik məhkəməsi” haqqında hansı fikir düzgündür?**

ა. Bu hüquq kitabı franklar çarı Xlodviqin hakimiyyəti dövründə yazılmışdır

ბ. Bu qanunlar Roma papasının əmri ilə franklar arasında onların xristianlaşdırılmasından sonra yayıldı

გ. Bu qanun toplusu franklar çarlığının majordonması, Ədalətli Karlosun əmri ilə tərcümə edildi

დ. Bu hüquq məcəlləsini franklar arasında imperator Böyük Karlos təsis etmişdir

**6. İllüstrasiyada təsvir olunmuş məbədin tikintisi hansı imperatorun adı ilə əlaqədardır?**



ა. Böyük Konstantinin

ბ. Birinci Feodosinin

გ. Böyük Yustinyanın

დ. Herakl Qeysərin

## 7. İllüstrasiyada İslam memarlığının hansı abidəsi əks etdirilmişdir?



ა. Kəəbə Məkkədə

ბ. Əlinin məqbərəsi

გ. Bağdad mədrəsəsi

დ. Ömər məscidi

**8. Cənub-Qərbi Gürcüstanda VIII əsrin axırlarında və IX əsrin əvvəllərində Aşot Kurapalatın fəaliyyətinin davam etdirilməsi nə ilə əlaqədardır?**

ა. Xəlifə tərəfindən Tao-Klarcetinin tabe edilməsi və bu diyarda Aşotun hakim təyin edilməsi

ბ. Aşotun tikinti fəaliyyətini qarşı-qarşıya qoyduğu Bizans tərəfindən Tao-Klarcetidə yaradılmış demoqrafik ekspansiya

გ. Ərəblər tərəfindən Aşotun Kartlidən qovulması və buna görə onun Tao-Klarcetidə məskən salmağa məcbur olması

დ. Abxazlar çarı tərəfindən Tao-Klarcetini tutmaq üçün başlanmış yürüşlər və Aşotun buna qarşı çıxması

## 9. Orta əsrlər Avropasında cəngavər rütbəsi almaq üçün zəruri olan şərt nə idi?

ა. Qala-istehkama malik olmaq

ბ. Kardinalın icazəsi

გ. Ruhanı ordeninin üzvlüyü

დ. Alicənab mənşə

## 10. Kanossa qala-istehkamı hansı tarixi hadisə ilə əlaqədardır?

ა. Yüzillik müharibə

ბ. Səlib yürüşləri

გ. İslahat hərəkatı

დ. İnvestitura uğrunda mübarizə

**11. Salnaməçinin yazdığına görə “Bir gün Kutatisidə və Artanucidə və Klarceti düzənliyində... ölkəni taladılar və məhv etdilər, meşədə, qayalıqlarda, mağaralarda  sağ qalanları qırdılar. Dağlarda və qala-istehkamlarda, mağaralarda olanlar aclıqdan və soyuqdan həlak oldular. Bu üçyüzüncü koronikonda baş verdi”. Müəllifi hansı işğalçı barədə danışır?**

ა. Ərəblər

ბ. Monqollar

გ. Səlcuqlar

დ. İranlılar

**12. 1187-ci ildə xristianlar tərəfindən Yerusəlimin itirilməsindən sonra Yerusəlim çarlığının paytaxtı hara köçdü?**

ა. Akraya

ბ. Edesaya

გ. Antiokiyaya

დ. Tripoliyə

**13. 1534-cü ildə qəbul edilmiş “Supremasiya aktı ilə” kilsəyə başçılıq etmək üçün İngiltərəyə kim getdi?**

ა. Uels şahzadəsi

ბ. İngiltərə çarı

გ. Vestminster kardinalı

დ. Kenterberiya arxiyepiskopu

**14. 1683-cü ildə Yan Sobeskin başçılığı altında Avropa xristianları ordusu Osmanlı qoşununu böyük məğlubiyyətə uğratdı. Bu döyüşün nəticəsi nə oldu?**

ა. Kualisiya ordusunun Konstantipola doğru yolu açıldı

ბ. Yeni dövlət – İlahi Roma imperiyası yaradıldı

გ. Müstəqil Serbiya çarlığı bərpa olundu

დ. Osmanlılar Venanın mühasirəsini açmalı oldular

**15. Konstantin Məmmədqulu xan tərəfindən ləzgilərin muzdlu əsgərləri ilə Tbilisinin alınmasının nəticələrindən biri nə oldu?**

ა. Kartlidə qızılbaşlığın əsasının qoyulması

ბ. VI Vaxtanqın Rusiyaya sığınması

გ. Kartli-Kaxetinin birləşməsi

დ. Osmanlıların Tbilisi qalasından qovulması

**16. Hansı gürcü tarixçisi çar Rostomun sarayında böyüdü və bir zamanlar İsfahan Taruğası vəzifəsini tutdu?**

ა. Parsadan Qorqicanidze

ბ. Vaxuşti Batonişvili

გ. Papuna Orbeliani

დ. Sexniya Çxeidze

**17. Başqa səbəblərlə yanaşı Napoleonun yüz günlük hakimiyyətə qayıtmasına nə imkan yaratdı?**

ა. Britaniya donanmasının Fransanın sahillərində mühasirəni kəsməsi

ბ. Rusiya imperatoru I Aleksandrın Avropayazidd mövqeyi

გ. XVIII Lui tərəfindən bərpa olunduqdan sonra həyata keçirilmiş siyasət

დ. Vena konqresi tərəfindən işlənib hazrılanmış sonuncu bəyannamənin şərtləri

**18. Qafqaz canişini Mixail Vorontsovun fəaliyyəti ilə əlaqədar hansı fikir düzgündür?**

ა. Buna qədər mövcud olan zorakılıq siyasətindən imtina etdi və nisbətən liberal tədbirlər həyata keçirdi, onların son məqsədi Qafqazda muxtariyyət yaratmaq idi

ბ. Bütün diqqəti Şimali Qafqazın tabe edilməsinə yönəltdi, gürcüləri fəal surətdə bu mübarizəyə qoşdu və axırda İmam Şamili əsir ala bildi

გ. Gürcü knyaz və dvoryanlarla münasibətdə kompromis siyasəti işləyib hazırladı, bundan sonra hərbi xidmətə başlamaq hüququ verdi

დ. Müəyyən dərəcədə sələflik siyasətini dəyişdirdi, müxtəlif tədbirlərlə gürcü aristokratiyasının qəlbini ələ almağa cəhd göstərdi və son nəticədə buna nail oldu

**19. 1871-ci ildə Viktor II Emmanuel  təntənəli surətdə Romaya daxil oldu. Bu hadisə ilə başa çatan prosesə nə deyilir?**

ა. Repatriasiya

ბ. Reparasiya

გ. Rekonkista

დ. Risorcimento

**20. Fransanın üçüncü respublikasında mövcud olan siyasi böhranın aşkarlanması hansı hadisə sayılır?**

ა. „Emsin teleqramı“

ბ. „Qara cümə axşamı“

გ. „Qanlı bazar“

დ. „Dreyfusun işi“

## 21. Arçil Corcadze hansı siyasi partiyanın təsisçilərindən biri və lideri idi?

ა. Sosialist-federalistlərin

ბ. Sosial-demokratların

გ. Sosialist inqilabçıların

დ. Milli demokratların

**22. Birinci Dünya müharibəsi dövrünü hansı ədəbi əsər əks etdirir?**

ა. Mixail Cavaxişvilinin “Qadın yükü”

ბ. Erix Remarkın “Qərb cəbhəsi dəyişməzdir”

გ. Ernest Heminqueyin “Zəng kimi çağırır”

დ. Konstantine Qamsaxurdiyanın “Ayın oğurlanması”

**23. Gürcüstan Demokratik Respublikasında bəzi tərəflərə yerli muxtariyyət üsul-idarəsi verilməsi nəyi müəyyən edirdi?**

ა. Ümumi referendumun nəticəsi

ბ. Gürcüstan Respublikasının Konstitusiyası

გ. Təsis yığıncağının qərarı

დ. Hökumətin fövqəladə əmri

**24. Uinston Çörçil aşağıdakı sözlərlə hansı hadisəni qiymətləndirmişdir: “hökumətin abır-həya və müharibə arasında seçimi var idi. Onlar abır-həyanı seçəcək və müharibəni qəbul edəcəklər”.**

ა. Polşanın işğalı

ბ. Molotov-Ribbentrop paktı

გ. Avstriyanın anşlusu

დ. Münxen sazişi

**25-28№-li tapşırıqlar üçün təlimat.**

Tarixi hadisələri xronoloji qaydada yerləşdirin. Cavabları cavablar vərəqində verilmiş xanalarda yazın. Nəzərə alın ki, xanada yalnız qeyd olunmuş hadisənin müvafiq rəqəmi yazılmalıdır. Birinci xanada ən əvvəl baş verən hadisə ilə qeyd olunan rəqəm yazılmalıdır və s. Buna müvafiq olaraq, sonuncu, üçüncü xanada ən gec baş verən hadisə ilə qeyd olunan rəqəm yazılmalıdır. Hər tapşırığa 1 xal verilir.

## 25. Böyük xalq sürgünləri dövründə inkişaf etmiş hadisələri xronoloji qaydada yerləşdirin:

1. Katalauna düzənliyində döyüş
2. Romaya Alarixi yürüşü
3. Frankların xristianlaşdırılması

## 26. Xristianlıq tarixi ilə əlaqədar hadisələri xronoloji qaydada yerləşdirin:

1. Böyük skizm
2. Bütlər əleyhinə mübarizənin başlanması
3. Klermon kilsə yığıncağı

## 27. Səlib yürüşləri zamanı baş verən hadisələri xronoloji qaydada yerləşdirin:

1. Damietin mühasirəsi
2. Fridrix Barbarossanın həlak olması
3. Hospitallılar ordeninin təsis edilməsi

## 28. ABŞ-ın tarixi ilə əlaqədar məsələləri xronoloji qaydada yerləşdirin:

1. Müstəqillik haqqında bəyannamənin qəbul edilməsi
2. Vaşinqtonun paytaxt elan edilməsi
3. Birinci kontinental konqresin başa çatması

**29№-li tapşırıq üçün təlimat.**

Şagirdə xəritə verildi. O öz biliyinə və xəritədəki informasiyaya görə verilən suallara cavab verməlidir.

Şagirdin verdiyi cavablarda iki (2) səhv vardır.

Siz bu səhvləri tapmalı, onları cavablar vərəqinin müvafiq yerində yazmalı və oradaca düzgün cavabı qeyd etməlisiniz. Tapşırığa maksimum 2 xal verilir.

**Tapşırıq 29. Xəritəyə və suallara növbəti səhifələrdə baxın**




**Suallara növbəti səhifədə baxın**

| Şagird üçün verilən suallar: | Şagird tərəfindən verilmiş cavablar: |
|---|---|
| **29.1.** Xəritədə hansı əsrin vəziyyəti təsvir olunmuşdur? | **29.1.** XVII |
| **29.2.** Xəritəyə əsasən, Osmanlının ələ keçirdiyi gürcü siyasi vahidinin ərazisi necə adlanır? | **29.2.** Axalsixe paşalığı |
| **29.3.** Xəritədə təsvir olunmuş dövrdə birləşdirilmiş Kartli-Kaxeti çarının adını çəkin. | **29.3.** I Teymuraz |
| **29.4.** Adı xəritədə göstərilən döyüşlə əlaqədar olan gürcü siyasi xadiminin (çardan başqa) adını çəkin. | **29.4.** Giorgi Saakadze |
| **29.5.** Xəritəyə əsasən, Osmanlı tərəfindən ələ keçirilmiş gürcü siyasi vahidi olan iki gürcü çarlığının adını çəkin. | **29.5.** Kartli, İmereti |
| **29.6.** Xəritəyə əsasən, Katolik missionerlərin mövcud olduğu gürcü knyazlıqlarının adını çəkin. | **29.6.** İmereti, Sameqrelo |

**30№-li tapşırıq üçün təlimat**

İllüstrasiyada verilmiş informasiyanı diqqətlə təhlil edin və suallara cavab verin. Cavabları cavablar vərəqinin müvafiq yerinə yazın. Tapşırığa maksimum 7 xal verilir.

**Tapşırıq 30. İllüstrasiyalara və suallara növbəti səhifələrdə baxın**



.

1



3


2


**Suallara növbəti səhifədə baxın**

**İllüstrasiyada XX əsrin ikinci yarısında Avropanın şəhərlərindən birində inkişaf etmiş tarixi prosesdən epizodlar verilmişdir.**

**Suallar:**

(2) **30.1**. İllüstrasiyalarda hansı şəhərdə inkişaf etmiş tarixi hadisələr əks etdirilmişdir və göstərilən hadisələrin məhz bu şəhərdə baş verməsinə nə səbəb olmuşdur?

(2) **30.2.** Verilən tarixi prosesin ən erkən mərhələsi hansı illüstrasiyada təsvir olunmuşdur? Cavabı illüstrasiyada mövcud olan informasiya üzrə əsaslandırın.

(2) **30.3.** Verilən tarixi prosesin ən gec mərhələsi hansı illüstrasiyalarda təsvir olunmuşdur və sizin fikrinizcə, illüstrasiyada mövcud olan informasiyadan hansı nəticəni çıxarmaq olar?

(1) **30.4.** Təqdim olunan illüstrasiyalardan istifadə etdiyiniz bir konkret dərs mövzusunun adını çəkin.

**31№-li tapşırıq üçün təlimat.** Aşağıda verilmiş tarixi sənədi diqqətlə oxuyun, mətni düşünün və suallara cavab verin. Cavabları cavablar vərəqinin müvafiq yerinə yazın. Tapşırığa maksimum 19 xal verilir.

**Tapşırıq 31. Tarixi sənəd və suallara növbəti səhifələrdə baxın**

## 31. General İlya Odişelidzenin məktubundan bir parça "Gürcü ordusu necə yarandı"

Dünya müharibəsi zamanı mərkəzi dövlətlərin əleyhinə Gürcüstan Rusiya ordusuna 180.000-200.000 nəfər göndərdi. Onların arasında könüllüləri də hesaba almalıyıq, lakin Rusiyanın ordusunda çox olan gürcü zabitləri və generallarını hesaba almamalıyıq. Gürcü müsəlmanları hərbi mükəlləfiyyətdən azad edildiklərinə görə burada mən ancaq xristian gürcüləri hesablayıram.

Rusiya inqilabı zamanı bolşeviklərin mövcudluğu özünü aydın göstərdiyinə görə bu rus ordusunda özünü əks etdirdi, burada həmçinin müharibəni tezliklə başa çatdırmaq arzusu özünü göstərdi və ordu parçalanmağa başladı. 1917-ci ilin oktyabrında Rusiyada bolşevizm qələbə çaldı. Qarşısı alınmaz bolşevik təbliğatının təsiri altında diviziyalar və korpuslar öz başçılarına tabe olmaqdan imtina edir, öz əmlaklarını talayır və onların böyük qismini rəqiblərinə qoyurdular. Onlar nizamsız halda cəbhəni tərk etməyə başladılar. Hamıya yaxşı məlum olduğu kimi bunun Rusiya üçün faciəli nəticələri oldu. Bu hadisələrin Zaqafqaziyada xüsusilə gürcülər və ermənilər üçün faciəli nəticələri oldu. Gürcülər və ermənilər bu böyük təhlükəni gördülər, bolşeviklərin son səfərlərinədək bir neçə ay əvvəl Tbilisidə gürcü və erməni milli hissələrinin formalaşdırılması haqqında məsələ qaldırdılar.

Ermənilər bundan əvvəl Rusiya ordusunun tərkibində bir neçə milli batalyon yarada bildilər. Gürcülərin də süvari polku var idi. Hələ 1917-ci ilin sentyabr-oktyabrında Kerenski hökuməti milli hissələrin yaradılmasına məcburən razılıq verdi. Ancaq yerli-Qafqaz inqilabi hərbi hökuməti cəbhə komissarı Donskoyun simasında əzəl başdan bu ideyaya qarşı çıxırdı. Müəyyən dairələrdə o bildirirdi ki, milli hissələri yaradanadək Qafqazı qanına qəltan edəcəkdir. Bolşeviklərin uğurları və Rusiya ordusunun parçalanmasına paralel olaraq o mövqeyi daha da yüngülləşdirir və gürcü millətçilərinə şifahi vədlər verirdi. Oktyabrın birinci yarısında o əvvəlcə Qafqazda milli hissələrin yaradılmasına müqavimət götərir və partiya dairələrində deyirdi ki, gürcü və digər millətlərdən xahiş və məktublar alır, lakin onları mahudun altına qoyur və Qafqazda heç kəs milli hissələri heç vaxt görə bilməyəcəkdir.

**Suallara keçid:** 1 2 3 4 5 6 7 8 9 10 11

**Mətnin davamına növbəti səhifədə baxın**

Hadisələr Donskoyun iradəsi əleyhinə inkişaf edirdi və bu milli hissələrin formalaşdırılmasını sürətləndirdi. İcazə o qədər gec verildi ki, milli birləşmələr Qafqaz cəbhəsinin rus hissələrini dəyişdirə bilmədilər. Onlar özbaşına cəbhədən çıxıb gedirdilər.

Yalnız 1917-ci il oktyabrın axırlarında milli hissələrin yaradılmasına başlamaq üçün real icazə verdilər. 1918-ci il yanvarın axırlarında düşmənin baş komandanından teleqram aldım ki, o sülhü pozur və hücuma başlayır.

Gürcülərin və ermənilərin hücuma başlamazdan əvvəl yalnız kiçik hissələri var idi. Korpuslar 200-300 nəfərlik polklardan ibarət idi. Onları polk deyil kiçik dəstələr adlandırmaq olardı. Türklərin hücumuna nə Ərzurum, nə Qars, nə Aleksandropol, nə də Batumi tab gətirə bildi, onların qarnizonlarının qaçmalarının və istehkamları düşmənə vermələrinin səbəblərindən biri bu idi.

Ermənilərin öz qoşunlarını yaratmaq işində gürcülərlə müqayisədə həmişə müəyyən üstünlükləri var idi. Qafqaz canişininin onlara qarşı rəğbət bəslədiyindən istifadə edərək hələ inqilaba qədər onlar bir neçə batalyon yaratdılar. Onların

**Suallara keçid:** 1 2 3 4 5 6 7 8 9 10 11

güclənmək, təlim görmək və döyüş təcrübəsi qazanmaq üçün kifayət qədər vaxtları var idi. Bu hissələrin erməni korpusunun sürətlə yaranmasında gürcü korpusu ilə müqayisədə üstünlükləri var idi.

Gürcü korpusunun erməni korpusunda olan vaxt üstünlükləri yox idi. Onun formalaşmasına artıq erməni korpusunun formalaşmış olduğu vaxtda başlandı. Buna görə Batumini bu vaxt üçün ancaq vərəqdə mövcud olan şəxsən gürcü korpusu deyil, bu sözün tam mənasında sürətlə improvizasiya olunmuş ayrı-ayrı kiçik dəstələr müdafiə edirdi. Batumi süquta uğradı və bunun ancaq bir müsbət nəticəsi oldu – hamıya aydın oldu ki, orduya daha çox diqqət və ehtiyat lazımdır. Ordunun yaradılması, gücləndirilməsi və təlim keçməsi işləri daha da intensivləşdi. Xoşbəxtlikdən elə oldu ki, Rusiya ordusunda xidmət edən bütün gürcü zabit və generalları rus bolşevizminin xidmətində durmadılar, Rusiyanı tərk edib vətənə qayıtdılar və səmimiyyətlə şüurlu surətdə gürcü xalqının özləri üçün seçdiyi dövlətin xidmətində durdular. Bu Gürcüstan hökumətinə bütün zabit və generalları qorxusuz və təhlükəsiz öz ixtisasları və imkanları ilə orduda işi gücləndirməyə imkan verdi.

**Sualları növbəti səhifədə baxın**

## *Suallar:*

(1) **31.1.** Mətndə xatırladılan “mərkəzi hakimiyyətdə” nəzərdə tutulan dövlətlərin adını çəkin.

(1) **31.2.** Fikrinizcə, gürcü müsəlmanları hərbi mükəlləfiyyətdən nə üçün azad edilmişdilər?

(1) **31.3.** General Odişelidzenin qeyd edilən hadisələrin fəal iştirakçısı olduğu aşkar görünən sənəddən sitat gətirin.

(1) **31.4.** Sənədə əsasən, “Gürcüstan hökumətinə qorxusuz olaraq bütün zabit və generallardan istifadə etməyə imkan verən” başlıca mühitin adını çəkin.

(2) **31.5.** Bolşeviklərin təsiri altında olan birləşmələrin nə iş gördüklərini bütünlüklə sadalayın.

(2) **31.6.** Mənbəyə əsasən, Rusiya-Osmanlı cəbhəsində yaranmış vəziyyət nə üçün xüsusilə ağır idi?

**Sənədin mətninin** 1-ci səhifəsinə **keçid**
**Sənədin mətninin** 2-ci səhifəsinə **keçid**

(2) **31.7.** Sənədə əsasən, Donskoyun nə üçün böyük təsiri var idi və fikrinizcə, o nə üçün milli birləşmələrin yaradılması əleyhinə idi?

(2) **31.8.** Mənbəyə əsasən, Donskoyun mövqeyinin milli birləşmələr yaradılması ilə əlaqədar necə dəyişdiyini təsvir edin və buna hansı konkret hadisənin səbəb olduğunu deyin.

(2) **31.9.** Sənədə əsasən, Batuminin süqutunun səbəbi nə oldu və Batuminin itirilməsi hansı müsbət nəticə verdi?

(2) **31.10.** Milli birləşmələrin yaradılması işində ermənilərin üstünlüyü özünü nədə əks etdirirdi və general Odişelidzenin fikrincə, bunun səbəbi nə idi?

(3) **31.11.** Gürcüstan Demokratik Respublikasının silahlı qüvvələrinin uğurlar qazandığı üç mühüm hadisənin adını çəkin.

**Sənədin mətninin** 1-ci səhifəsinə **keçid**
**Sənədin mətninin** 2-ci səhifəsinə **keçid**

**32№-li tapşırıq üçün təlimat .** Aşağıdakı tapşırığı diqqətlə oxuyun və suallara cavab verin. Cavabları cavablar vərəqinin müvafiq yerinə yazın. Hər suala tam və ətraflı cavab verin. Tapşırığa maksimum 4 xal verilir.

## Tapşırıq 32. Diskussiya mövzusunun müəyyən edilməsi

(1) **32.1.** 31№-li tapşırıqda verilmiş tarixi mənbədən, İlya Odişelidzenin "Gürcü ordusu necə yarandı" məktubundan hansı konkret mövzunun müzakirəsində istifadə edərdiniz?

(1) **32.2.** Dərsdə müzakirə olunan mövzunun başlıca məsələsini nəzərə almaqla diskussiya mövzusunun başlığını yaradın.

(2) **32.3.** Diskussiya zamanı qarşıya çıxa biləcək iki alternativ mövqeni formalaşdırın.